Bülleten No: 29 / may 2015

Elektron Hökumət Portalı
your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

MAY 2015

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




ISO 9001 SGS UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın 10.2.4-cü yarımbəndinə uyğun olaraq dövlət orqanlarında elektron sənəd dövriyyəsinin və vətəndaşların müraciətləri üzrə kargüzarlığın elektron formada aparılmasını təmin etmək məqsədi ilə **qərara alıram:**



**1.** Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemi (bundan sonra – informasiya sistemi) yaradılsın.

**2.** "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə qaydaları" təsdiq edilsin (əlavə olunur).

**3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:**

**3.1.** Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə vətəndaşların müraciətlərinin elektron qeydiyyatı proqramı əsasında informasiya sisteminin yaradılmasını və 2015-ci il iyulun 1-dək tətbiq olunmasını təmin etsin;

**3.2.** informasiya sistemi qovşaqlarının fəaliyyətində informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə yerli icra hakimiyyəti orqanlarının həmin sistemdən istifadə edəcək məsul şəxsləri barədə məlumatı ümumiləşdirərək, müvafiq tədbirlər görülməsi üçün bir ay müddətində Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinə təqdim etsin;

**3.3.** informasiya sisteminin tətbiq olunması ilə əlaqədar həmin sistemdən istifadə üçün bilik və vərdişlərin artırılmasını və ondan təhlükəsiz istifadəni təmin etmək məqsədi ilə yerli icra hakimiyyəti orqanlarında müntəzəm təlimlərin keçirilməsini təşkil etsin.

**4. Yerli icra hakimiyyəti orqanları:**

**4.1.** informasiya sisteminə daxil edilən məlumatların dəqiqliyinin, tamlığının və etibarlılığının təmin edilməsi üçün tədbirlər görsünlər;

**4.2.** informasiya sisteminin fəaliyyətinin təşkilini, istifadəsini və təhlükəsizliyini təmin etsinlər;

**4.3.** informasiya sisteminin tətbiqi üçün tələb olunan texniki vasitələrin alınması və lazımi iş şəraitinin yaradılması məsələlərini həll etsinlər.

**5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi:**

**5.1.** informasiya sisteminin mərkəzləşdirilmiş server avadanlığına texniki xidmət göstərilməsini təmin etsin;

**5.2.** Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə informasiya sisteminin fasiləsiz fəaliyyətini və proqram təminatına dəstəyi təmin etsin.

**6. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi:**

**6.1.** yerli icra hakimiyyəti orqanlarının informasiya sisteminə qoşulması üçün onları zəruri telekommunikasiya kanalları ilə təmin etsin;

**6.2.** informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi ilə birlikdə müvafiq tədbirlər görsün.

7. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası bu Fərmanın icrasına nəzarəti həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 29 aprel 2015-ci il***

www.e-gov.az

# "Elektron Hökumət" bülleteninin aprel sayının təqdimat mərasimi keçirildi




**10 aprel tarixdə "Elektron Hökumət" portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən "Elektron Hökumət" bülleteninin aprel sayının təqdimatı üzrə brifinq keçirildi. Tədbirdə media nümayəndələri və portalda aktiv fəaliyyətləri ilə seçilən bəzi dövlət qurumlarının nümayəndələri iştirak etdilər. Brifinqin keçirilməsində məqsəd təqdim olunan yeniliklər barədə informasiyanın kütləviləşməsi, həmçinin, görülən işlərin mətbuata birbaşa elan olunmasından ibarətdir.**

Tədbirin təşkilatçısı "Elektron Hökumət" quruculuğu sahəsində son yeniliklər və statistik rəqəmlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Bildirildi ki, artıq "Elektron Hökumət" portalına daxil olanların sayı 1,4 milyonu, elektron xidmətlərdən istifadə sayı isə 8,6 milyonu keçmişdir. Portal üzərindən təqdim olunan e-xidmətlərin sayı artıq 413-dür. Göründüyü kimi portal üzərindən təqdim olan e-xidmətlərin çeşidlərində və e-xidmətlərdən istifadədə dinamik artım var. Portal üzərindən daha çox praktik əhəmiyyətli sosial xidmətlərin təqdiminə üstünlük verilir. Məruzəçi qeyd etdi ki, e-arayışların istifadəçiləri durmadan artır, artıq banklar və kredit təşkilatları ilə yanaşı, lizing şirkətləri də e-arayışlardan istifadəyə start verib. Mart ayında lizing şirkətləri arasından Ansar Lizing şirkəti ilk olaraq portalla əməkdaşlığa başlamışdır.

Vurğulandı ki, Təhsil Nazirliyi bu ay iki yeni e-arayışını portal üzərindən istifadəyə verdi. Bunlar, "Ümumtəhsil məktəblərində çalışan pedaqoji və texniki heyətin iş yeri haqqında elektron arayış" və "Ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında elektron arayış"lardır. Daha bir e-arayış isə hazırda Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən hazırlanmaqdadır və tezliklə portal üzərindən vətəndaşların istifadəsinə veriləcəkdir .

Yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi ilə bağlı görülən işlər, yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqinin portalın inkişafına təkan verəcəyi və elektron xidmətlərdən istifadənin kütləviləşməsində mühüm rol oynayacağı barədə iştirakçılara məlumat verildi.

Məruzəçi qeyd etdi ki, yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlıq edərək vəzifəli şəxslərin qəbuluna "Elektron Hökumət" portalı vasitəsilə yazılmaq və prosesin onlayn izlənilməsinin təmin edilməsi üçün "Vətəndaşların onlayn qəbula yazılması" e-xidməti hazırlanmışdır. İlkin olaraq Biləsuvar İcra Hakimiyyəti üzrə bu xidmət mart ayından başlayaraq vətəndaşların istifadəsinə təqdim olunub. Tezliklə həmin e-xidmətin digər icra strukturlarına da tətbiqi planlaşdırılır. Bu e-xidmətdən istifadə etmək istəyən bütün qurumlara MHM lazımi dəstəyini təqdim edəcəkdir.

Daha sonra, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin direktor müavini Məzahim Quliyev yaradılan Data Mərkəz, onun sosial və iqtisadi mahiyyətindən bəhs etdi. O, dünya səviyyəsində tanınan Tier III səviyyəli regional Data Mərkəzin ölkə üçün iqtisadi əhəmiyyətindən danışdı. Data Mərkəzin beynəlxalq səviyyədə əhəmiyyətini açıqlayan məruzəçi mərkəzin yerli və beynəlxalq biznes sektorların əməkdaşlığında yeni dövr açacağını bildirdi. Qeyd edildi ki, may-iyun aylarında test olunması nəzərdə tutulan Data Mərkəzin il ərzində istifadəyə veriləcəyi gözlənilir.

Data mərkəz müxtəlif dövlət orqanlarınən mülkiyyətində olan informasiya sistemlərinin əsas və ehtiyat saxlanılması məqsədilə istifadə üçün nəzərdə tutulur. Data mərkəzin xidmətlərindən istifadə etməklə dövlət və qeyri dövlət qurumları müvafiq təyinatlı korporativ data mərkəzlərin tikilməsi üçün təkrarçılığa yol verməməklə, müvafiq infrasturukturun qurulması, saxlanılması və istismarının təşkili məqsədilə maliyyə vəsaitlərinə qənaət etmək imkanı əldə etmiş olacaqlar.

Daha sonra, Biləsuvar rayon İcra Hakimiyyətinin nümayəndəsi Selvin Şükürlü çıxış edərək, mart ayında vətəndaşların istifadəsinə verilmiş "Vətəndaşların onlayn qəbula yazılması" e-xidməti barədə məlumat verdi. Belə e-xidmətlərin hazırlanmasında MHM ilə əməkdaşlıqlarının hazırda davam etdiyini bildirdi və qurum tərəfindən tezliklə digər xidmətlərin də elektronlaşdırılmasının nəzərdə tutulduğunu vurğuladı.

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz öz çıxışında mətbuat nümayəndələrini ölkədə baş verən elektronlaşma prosesi ilə daha yaxından maraqlanmağa, nöqsanlar və çatışmazlıqlar üzrə araşdırmalar apararaq daha tələbkar olmağa səslədi.

Tədbir mətbuat nümayəndələrinin sualları üzrə müzakirələrlə yekunlaşdı.

# "Mədəniyyət sahəsində elektron məlumat sisteminin" tərkibi, təşkili və idarə olunması qaydaları təsdiq edilib

**Sənəddə yer alan qaydalar "Mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibi, təşkili və idarə olunması, həmçinin, elektron məlumat sisteminin iştirakçılarını, elektron məlumat sistemindən məlumatların alınmasını tənzimləyir.**

Mədəniyyət sahəsində dövlət siyasətinin təmin edilməsi, dövlət reyestrinin və dövlət monitorinqinin aparılması, mədəniyyət sahəsində fəaliyyət göstərən subyektlər arasında münasibətlərin inkişafı məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mədəniyyət sahəsində elektron məlumat sistemi yaradılır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 aprel 2015-ci il tarixli,102 nömrəli qərarına əsasən mədəniyyət sahəsində elektron məlumat sisteminin təşkili ilə bağlı proqram təminatı və mərkəzi serverin texniki təchizatı Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilir.

Elektron məlumat sistemini (informasiya resursunu) mədəniyyət sahəsindəki məlumat bazalarının sistemli formada birləşdirilməsini, bu bazaya məlumatların daxil edilməsini, dəyişdirilməsini, mühafizə və təhlükəsizliyinin təmin edilməsini, sistem üzrə axtarışların aparılmasını, digər funksional əməliyyatların həyata keçirilməsini təmin edən xüsusi proqram kompleksi təşkil edəcək. Elektron məlumat sisteminin strukturuna inzibatçıda olan mərkəzi server və iştirakçının bu sistemə qoşulmasını təmin etmək imkanına malik olan bir və ya bir neçə kompüterləşdirilən iş yerləri daxildir. Mədəniyyət sahəsinə dair məlumat bazası elektron məlumat sisteminin mərkəzi serverində yerləşəcək.

Dövlət orqanları, hüquqi və fiziki şəxslər elektron məlumat sistemindən məlumat almaq üçün bilavasitə elektron məlumat sisteminin inzibatçısına sorğu vasitəsilə müraciət edəcəklər. Daxil olan sorğu inzibatçı tərəfindən öyrənilərək 7 iş günü müddətində onun icrası təmin ediləcək.

# Açıq Hökumət Məlumatları (data.gov.az) portalına dörd yeni məlumat bazası əlavə olundu

**Dünya təcrübəsinə nəzər yetirdikdə, elektronlaşmanın yüksək mərhələsi kimi hökumət məlumatlarının açıq edilməsi prosesinin artıq öz ictimai bəhrəsini verdiyi müşahidə edirik. Hazırda, bir çox dövlətlər vətəndaşların gündəlik sosial qayğılarının bu məlumatlar əsasında hazırlanan mobil tərtibatlar vasitəsilə həllini təmin etməyə səy göstərir. Açıq edilən ictimai məlumatlar əsasından hazırlanan reminder, naviqator tipli eləcə də, informativ mobil əlavələr vətəndaşların gündəlik qayğılarını yüngülləşdirməklə yanaşı eləcə də, ölkəyə yüksək gəlir gətirir.**

Hazırda "E-hökumət" portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin təşəbbüsü ilə mobil tətbiqlərinin hazırlanması üçün zəruri şərait yaradılmışdır. Cari ilin əvvəlində vətəndaşların istifadəsinə verilmiş "data.gov.az" açıq hökumət məlumatları portalında hazırda 20-dən artıq məlumat bazası açıq edilmişdir.

Aprel ayında daha 4 adda açıq servislər Mədəniyyət və Turizm Nazirliyi tərəfindən açıq məlumatlar portalına inteqrasiya edildi. Servislər qurumun mülkiyyətində olan GOMAP coğrafi informasiya sistemini əhatə edir. Sözügedən açıq servislər aşağıdakılardır:

- *"Obyekt axtarışı üzrə məlumatların əldə olunması"*
- *"Verilmiş məntəqənin radiusunu daxil etməklə ətrafında olan mülklərin axtarışı"*
- *"İki məntəqə arasında avtomobil marşrutunun qurulması"*
- *"Ünvan axtarışı üzrə məlumatların əldə olunması "*

Açıq edilən hər bir servis üzrə bütün cari informasiyalar portalda yerləşdirilmişdir. Bununla yanaşı, portalda hər bir məlumat üzrə yaradıla biləcək mobil servisin hazırlanma metodları üzrə təlimat da yerləşdirilmişdir.

Qeyd edək ki, sözügedən məlumatlar naviqator tipli mobil əlavələrin hazırlanması üçün zəruri informasiyaları hərtərəfli əhatə edir. Bu məlumatlardan istənilən şəxs heç bir patent ödəmədən yararlana bilər. Ümumilikdə isə qurum tərəfindən 40-a yaxın açıq servislərin portalda yerləşdirilməsi nəzərdə tutulmuşdur. Təqdim edilən servislər fərdi yönümlü proqram əlavələrinin hazırlanmasında istfadə ediləcəkdir.

Nəzərinizə çatdıraq ki, açıq hökumət məlumatları ölkəmizdə dünya təcrübəsinə uyğun tətbiq edilir və açıq edilən məlumatlar əsasında yeni iş potensialı, yeni xidmətlər yaranacaq, bu da öz növbəsində elm və iqtisadiyyatın inkişafına müsbət təsir göstərəcəkdir. Nəticədə mövcud ictimai xidmətlərin keyfiyyəti yüksələcək və iqtisadi tərəqqiyə səbəb olacaqdır.

www.e-gov.az

# Artıq məcburi köçkünlərə ayrılan güzəştlərə "Elektron Hökumət" portalı üzərindən nəzarət etmək mümkündür



Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli «Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanının və Nazirlər Kabinetinin 1 may 2014-cü il tarixli «Elektron hökumət» portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı»nın və İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərinin «Elektron Hökumət» portalına qoşulması üçün Texniki Tələblər»in təsdiq edilməsi haqqında qərarının icrası ilə əlaqədar Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin mütəxəssislərinin birgə iştirakı ilə "Məcburi köçkünlərə güzəştlər üzrə avtomatik idarəetmə sistemi" dövlət informasiya sistemi hazırlanmışdır.

21.04.2015-ci il tarixdə MHM-də yeni yaradılmış dövlət informasiya sisteminin istismarının və istifadəsinin təşkili üçün təlimlər keçirilmişdir. Tədbirdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, işğal olunmuş rayonlarının İcra Hakimiyyəti nümayəndələri və MHM-nin mütəxəssisləri iştirak etdilər.

MHM-in direktor müavini tədbiri açıq elan edərək iştirakçılara "Məcburi köçkünlərə güzəştlər üzrə avtomatik idarəetmə sistemi"nin ictimai mahiyyətini açıqladı.

Təqdimat zamanı iştirakçılar, müvafiq idarəetmə sistemi üzrə praktiki funksiyalarla tanış oldular.

Qeyd edək ki, "Məcburi köçkünlərə güzəştlər üzrə avtomatik idarəetmə sistemi" hazırda 6 funksional bölmədən ibarətdir:

- **Güzəşt tətbiq edilən məcburi köçkünlərin siyahısı;**
- **Digər qurumlardan göndərişlər;**
- **Siyahıya yeni məcburi köçkün əlavə et;**
- **Ünvanlar üzrə yerdəyişmə;**
- **Əməliyyatlar üzrə tarixçə;**
- **Hesabatlar.**

Güzəşt tətbiq edilən məcburi köçkünlərin siyahısı-sözügedən siyahıda çörək pulu və kommunal xərcləri dövlət tərəfindən qarşılanan məcburi köçkün ailələrinin tərkibi ilə siyahısı əks olunur. Siyahıda düzəliş etmək və arxivləmə funksiyaları da yerləşdirilmişdir.

Digər qurumlardan göndərişlər bölməsi qurumlar arasında əks əlaqə üçün nəzərdə tutulmuşdur. Mövcud bölmə vasitəsilə digər quruma müraciət etmək və göndərişlər qəbul etmək mümkündür.

Siyahıya yeni məcburi köçkün əlavə et bölməsindən adından da göründüyü kimi yeni məcburi köçkünün qeydiyyatı zamanı istifadə olunur.

Ünvanlar üzrə yerdəyişmə bölməsindən istifadə etməklə məcburi köçkünün bölgə üzrə yaşayış yerini dəyişmək mümkündür.

Əməliyyatlar üzrə tarixçə bölməsi vasitəsilə sistem üzrə aparılan bütün əməliyyatları görmək olar.

Hesabatlar bölməsində ümumi statistik göstəricilərin dəqiq siyahısını əldə etmək mümkündür

"Məcburi köçkünlərə güzəştlər üzrə avtomatik idarə etmə sistemi" mövcud əməliyyatların maksimum dəqiq, şəffaf və qanunauyğun şəkildə icrası üçün nəzərdə tutulmuşdur. Müvafiq sistemin gələcəkdə çörək pulu və kommunal xərclərin ödənilməsi mərhələsinin tam elektronlaşdırılması məqsədilə banklarla inteqrasiyası da nəzərdə tutulur. "Məcburi köçkünlərə güzəştlər üzrə avtomatik idarəetmə sistemi"nin tətbiqi kağız əməliyyatlarının ləğvinə zəmin yaradacaqdır.

Məlumatların elektronlaşması tam olaraq başa çatdırıldıqdan sonra məcburi köçkünlərə təqdim edilən elektron xidmətlər real vaxt rejimdə cavablandırılacaq, müxtəlif dövlət orqanlarının informasiya sistemlərinə isə veb servislər vasitəsilə məlumat mübadiləsi aparmaq imkanları veriləcəkdir.

Tədbir çərçivəsində "Məcburi köçkünlərə güzəştlər üzrə avtomatik idarəetmə sistemi"ndən faydalanmaq üçün işğal olunmuş rayonların İH nümayəndələrinə RYTN-nin Məlumat Hesablama Mərkəzi tərəfindən pulsuz e-imza sertifikatları verildi.

# "Qaz abunəçiləri üzrə informasiya ehtiyatı"nın "Elektron Hökumət" portalına inteqrasiyası üçün SOCAR-la birgə müzakirə keçirildi

"Elektron Hökumət" portalının operatoru və SOCAR İTRİ-nin və "Azəriqaz" İB-nin müvafiq sahə üzrə əməkdaşları ilə birgə görüş keçirildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarının icrası ilə bağlı "Azəriqaz" İB-ə məxsus "Qaz abunəçiləri üzrə informasiya ehtiyatı"nın portala inteqrasiyası, müvafiq elektron xidmətlərin təşkili, veb servislərin hazırlanması ilə bağlı təşkil olunan toplantıda "Abonent bazasına xidmət", "SMART tipli sayğacların tətbiqi və nəzarəti", "İKT-nın tətbiqi" şöbələrinin, eləcə də Socar İTRİ-nin "Proqramlaşdırma şöbəsi"nin və "İnzibati idarəetmə şöbəsi"nin səlahiyyətliləri iştirak edirdlər. Toplantının məqsədi "Azəriqaz" İB-nin İnformasiya sisteminin portala qoşulması ilə ictimai tələbatın yüksək olduğu bəzi xidmətlərin elektronlaşdırılaraq "bir pəncərə" prinsipi üzrə vahid məkandan vətəndaşlara təqdim edilməsidir. Toplantı çərçivəsində zəruri sosial xidmətlərin elektronlaşdırılması, həmçinin, məlumat bazasının FİN-ə uyğunlaşdırılması məsələləri müzakirə edildi. Bu istiqamətdə portalın mövcud potensialları barədə ətraflı məlumat verildi.

"Azəriqaz "İB-nin SMART tipli sayğacların tətbiqi və nəzarəti şöbəsinin rəisi SMART kartlar üzrə mövcud ödəniş sistemləri barədə ətraflı informasiya verərək, bu sahədə hazırlana biləcək sosial yönümlü bir neçə xidmətin elektronlaşdırılması ilə bağlı məlumat verdi. Birgə müzakirələrdən sonra vətəndaşların ən çox ehtiyac duyduğu və tez-tez problem yaşadığı aşağıdakı xidmətlərin elektronlaşması istiqamətində müvafiq tədbirlər görülməsi, bu istiqamətdə əməkdaşlıq edilməsi təklif edildi:

- *İstehlakçıların qaz şəbəkəsinə qoşulması üçün e-müraciət*
- *SMART kartların balansının onlayn rejimdə artırılması*
- *SMART kartların balansının yoxlanılması*
- *SMART kartların balansında olan köhnə borcların göstərilməsi*
- *Xəta səbəbindən SMART karta yüklənməmiş məbləğlərin bərpası*
- *Məcburi köçkünlərin limitlərinin onlayn rejimdə SMART karta yüklənilməsi*

Bundan başqa, yeni qaz abunəçilərinin sənədləşdirilməsi zamanı ünvan və soyadların, a.a. sistemə əl ilə daxil edildiyi və bununla əlaqədar bir çox mexaniki səhvlərin baş verdiyi qeyd olundu. Bu problemin aradan qaldırılması və İnformasiya sisteminin formalaşdırılmasının ilkin mənbədən aparılması məqsədilə portal üzərindən İAMAS informasiya sistemindən "Azəriqaz" İB-nə servis ötürülməsi təklif edildi və prosesin texniki detalları birgə müzakirə edildi.

Qeyd olundu ki, "Azəriqaz" İB-nin mövcud Abonent bazasında məlumatların ~70%-i FİN-ə uyğunlaşdırılıb. "Azəriqaz" İB-nin mülkiyyətində olan informasiya sistemlərində abunəçilərə dair fərdi məlumatların İAMAS informasiya sistemindəki məlumatlarla üzləşdirilərək FİN-ə uyğunlaşdırılması istiqamətində MHM birgə əməkdaşlığı davam etdirməyin zəruriliyini qeyd etdi.

Müzakirələrin sonunda müvafiq informasiya sisteminin portala inteqrasiya edilməsi üçün alınacaq serverlər və digər avadanlıqların texniki parametrləri MHM-in mütəxəssisləri tərəfindən SOCAR-ın əməkdaşlarına təqdim edildi və hər iki qurum arasında davamlı əməkdaşlıq sayəsində qeyd olunan məsələlərin tezliklə reallaşdırılacağı vurğulandı.

# Ünvanlı sosial yardımların təyinatında avtomatlaşdırılmış sistemə keçidlə bağlı texniki məsələlərin növbəti müzakirəsi aparılmışdır

*Az təminatlı vətəndaşların ünvanlı sosial yardımlar almaları üçün elektron şəkildə müraciət etmələri məqsədilə hazırlanan layihə ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nümayəndələri ilə "Elektron Hökumət" portalının operatoru əməkdaşlarının növbəti müzakirələri aparılmışdır.*

Azərbaycan Respublikası
Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi

Toplantı Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) hazırlanması ilə bağlı tələb olunan arayış və məlumatlar üzrə informasiya resurslarının "Elektron Hökumət" portalına inteqrasiyası, habelə, bununla bağlı əlaqəli qurumlarla iş və ünvanlı sosial yardımların təyinatında bütün mərhələlərin elektron təşkili müzakirə olundu.

"Elektron Hökumət" portalı vasitəsilə arayış və məlumatlar üzrə informasiya resurslarının çıxışı üçün ƏƏSMN-ə lazımi texniki imkanlar yaradılması, hazırlanacaq sistemdə vətəndaşların elektron xidmətdən istifadə etməsi üçün autentifikasiya mexanizmləri, həmçinin, müraciətlərin təsdiqi ilə bağlı e-imza həlli barədə müzakirələr aparıldı. Qarşılıqlı fikir mübadiləsi zamanı hər iki tərəfin mütəxəssisləri sistemin qurulması üçün istifadə ediləcək vasitələri və aparılacaq işlərin planını razılaşdırdılar.

Müvafiq layihə rahat və şəffaf xidmətlərə geniş çıxışın təmin olunmasına xidmət edəcək, ünvanlı dövlət sosial yardımı üçün elektron qaydada müraciətləri qəbul olunduqdan sonra rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri onlara verilən tapşırıq əsasında ailələrin maddi-məişət şəraitinin müayinəsini aparacaqlar. Bu proses müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi kompüter avadanlıqları vasitəsilə aparılacaq və nəticələrin real vaxt rejimində VEMTAS-a ötürülməsini təmin edəcəklər. Bütün əldə olunan məlumatlar ümumiləşdirildikdən sonra müraciət edən ailəyə yardım təyin olunub-olunmaması barədə qərar qəbul olunacaq. Vətəndaşa və ailəsinə bu barədə məlumat yenə də elektron qaydada veriləcək.

Cari işlər yekunlaşdıqdan sonra "Elektron Hökumət" portalına qoşulmuş informasiya sistemləri və ehtiyatları vasitəsilə ünvanlı sosial yardımların təyinatı prosesləri daha rahat və şəffaf olacaqdır.

## "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması və "Elektron hökumət" portalına inteqrasiya edilməsi məsələləri müzakirə edildi

"Elektron Hökumət" portalının operatoru və Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə İtaliyanın "ABACO" şirkətinin və onun lokal partnyor şirkətinin nümayəndələri də iştirak ediblər.



Toplantıda "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması və "Elektron Hökumət" portalına inteqrasiya edilməsi məsələləri müzakirə edildi. İdarəetmədə şəffaflığın və səmərəliliyin artırılmasının mühüm vasitəsi kimi elektron hökumətin genişləndirilməsi siyasətinə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması istiqamətində qısa müddət ərzində geniş miqyaslı işlər görüldüyü və Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"na uyğun olaraq hazırda Nazirlik tərəfindən göstərilən 19 elektron xidmətin "Elektron Hökumət" portalına inteqrasiya edildiyi qeyd olundu.

Görüşdə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin "Elektron Hökumət" portalına inteqrasiyası, bunun üçün sistemin FİN-ə uyğunlaşdırma məsələləri müzakirə edildi. Portal üzərindən İAMAS informasiya sistemindən Kənd Təsərrüfatı Nazirliyinə servis ötürülməsi qərara alındı və prosesin texniki detalları birgə müzakirə edildi.

Eyni zamanda "Elektron kənd təsərrüfatı" sisteminin Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrlərində qeydiyyata alınması məsələləri müzakirə edildi və bunun üçün zəruri şərtlər və qaydalar barədə görüş iştirakçılarına məlumat verildi.

İnformasiya sistemlərinin və elektron xidmətlərin digər qurumlara təqdim edilməsi məqsədilə veb servislərin hazırlanmasında nəzərə alınması zəruri olan texniki tələblər, ümumi standartlar və kriteriyalar haqda ətraflı məlumat verildi.

"Elektron kənd təsərrüfatı" informasiya sisteminin portala inteqrasiyası, FİN-ə uyğunlaşma, əlaqədar qurumlardan müvafiq servislərin portal vasitəsilə ötürülməsi və digər məsələlərdə Məlumat Hesablama Mərkəzi tərəfindən istənilən proqram-texniki dəsətəyin ediləcəyi bir daha vurğulandı.

## Aprel ayından etibarən daha iki bank elektron arayışlardan istifadəyə başladı

İstehlak krediti verən banklar maliyyə riskini nəzərə alaraq məlumatların doğruluğuna (həqiqiliyinə) böyük önəm verirlər. Problemli kreditlərin artdığı vaxtda banklar kreditlərin verilməsində böyük həssaslıq göstərir, müraciətçilər barəsində daha geniş və etibarlı məlumat toplamaq istəyirlər. Hal-hazırda elə banklar və maliyyə-kredit təşkilatları mövcuddur ki, onlar müraciətçilər tərəfindən verilən məlumatları dəqiqləşdirmək üçün müştərinin iş yerinə zəng etmək və s. kimi vasitələrdən istifadə edirlər. Əlbətdə ki, bu kreditin verilməsinə uzun vaxtın sərf edilməsi, müştərilər üçün əlavə narahatçılığın yaranması deməkdir.

NBC bank və "Dəmirbank" ASC-nin müştərilərinə bu aydan etibarən kredit əməliyyatları prosesinə elektron arayışları daxil edərək daha rahat xidmət təqdim edəcək. Bu elektron xidmət vasitəsilə vətəndaş banka getmədən, vaxt itkisinə yol vermədən onlayn rejimdə portala daxil olaraq sistem tərəfindən avtomatik formalaşdırılan arayışı elektron şəkildə banka göndərə bilər.

Qeyd edək ki, portal vasitəsilə sosial müavinətlər haqqında yardımlar, təqaüdçü barəsində məlumatlar, rabitə borcuna dair informasiya və digər bu tipli arayışları formalaşdırmaq mümkündür. Bu isə, vətandaşları əlavə getgəldən azad eləməklə bərabər, bank mütəxəssisləri tərəfindən düzgün qərarların verilməsində yetərli fayda verə bilər.

Hazırda, "Elektron Hökumət" portalının əməkdaşları gündəlik həyatda ən çox istifadə olunan və sosial tələbatın böyük olduğu bir sıra arayışların elektron şəkildə vətəndaşlara təqdim olunması üzərində işləyir.

# Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" elektron xidməti portala inteqrasiya edildi

**"Elektron Hökumət" portalının operatoru ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının birgə səyləri nəticəsində daha bir e-arayış "Elektron Hökumət" portalına inteqrasiya edildi. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təqdim olunan "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" e-xidməti vasitəsilə artıq vətəndaşlar təhsil aldıqları ali və orta ixtisas təhsili barədə e-arayışı "Elektron Hökumət" portalından asanlıqla əldə edə biləcəklər. Vətəndaş portalda qeydiyyatdan keçərək bu e-xidmətə daxil olduqda avtomatik olaraq formalaşan e-arayışda aşağıdakı məlumatları görür:**

- *Vətəndaşın soyadı, adı və ata adı*
- *Vətəndaşın doğum tarixi və qəbul olduğu tədris ili*
- *Qəbul üçün əsas*
- *Təhsil müəssisəsinin adı*
- *Təhsilin dövlət hesabına və ya ödənişli əsaslarla olması barədə məlumat*
- *Təhsil səviyyəsi*
- *İxtisasın şifri, adı və təhsilalma forması*
- *Təhsil üzrə cari vəziyyət*
- *Diplomun seriya, nömrəsi və qeydiyyat nömrəsi*
- *Diplomun verilməsi haqqında əmrin tarixi*
- *Diplomun növü*



Elektron Hökumət Portalı
www.e-gov.az
TQDK
157
Qaynar xətt

Sənədin nömrəsi: 1331000010809
Verilmə tarixi: 22.04.2015

**Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış**
**ELEKTRON ARAYIŞ**

| | | | |
|---|---|---|---|
| **Soyadı, adı, atasının adı** | XXXX XXXXXX XXXXX | **FİN** | XXXXX |
| **Doğum tarixi** | 27.03.1985 | **Cinsi** | Kişi |

**Qəbul olduğu təhsil müəssisəsi və ixtisas məlumatları**

| | | | |
|---|---|---|---|
| **Qəbul olduğu tədris ili** | 2002/2003 | **Qəbul üçün əsas** | TQDK-nın əmri |
| **İdentifikasiya kodu** | 2002100143624 | **Təhsil səviyyəsi** | Bakalavriat |
| **Təhsil müəssisənin adı** | Azərbaycan Dövlət Neft Akademiyası | **İxtisasın şifri, adı və təhsilalma forması** | TE100000-Tətbiqi riyaziyyat, əyani |
| **Təhsili dövlət hesabına və ya ödənişli əsaslarladır** | Dövlət hesabına | **Təhsil üzrə cari vəziyyəti** | Məzundur |

**Sonuncu təhsil müəssisəsi və ixtisas məlumatları**

| | | | |
|---|---|---|---|
| **İdentifikasiya kodu** | 2002100143624 | **Təhsil səviyyəsi** | Bakalavriat |
| **Təhsil müəssisənin adı** | Azərbaycan Dövlət Neft Akademiyası | **İxtisasın şifri, adı və təhsilalma forması** | TE100000-Tətbiqi riyaziyyat, əyani |
| **Təhsili dövlət hesabına və ya ödənişli əsaslarladır** | Dövlət hesabına | **Təhsil müəssisəni bitirdiyi il** | 2006 |
| **Diplomun seriya və nömrəsi** | B 068317 | **Diplomun qeydiyyat nömrəsi** | 0427 |
| **Diplomun verilməsi haqqında əmrin tarixi** | 13.07.2006 | **Diplomun növü** | Adi |

*Qeyd : "Tələbə-Məzun" dövlət elektron məlumat sistemi haqqında Əsasnamə"nin 16-cı maddəsinə əsasən tələbə haqqında verilmiş əmr, əmrin verildiyi tarixdən etibarən 10 gün ərzində təhsil müəssisəsi tərəfindən sistemin məlumat bazasına daxil edilməlidir. Bu səbəbdən təhsil üzrə cari vəziyyətə aid məlumatların aktuallaşmadsında müəyyən yubanmalar ola bilər.*

0JRK4HENRVAL

Əgər vətəndaş təhsil müəssisəsinə bir neçə dəfə qəbul olmuşdursa, onda hər bir qəbul olma ilə bağlı zəruri məlumatlar e-arayışda əks olunur. Qeyd edək ki, TQDK tərəfindən portal üzərindən təqdim olunan e-arayış "Tələbə-məzun" dövlət elektron məlumat sistemi əsasında hazırlanmışdır. Sözügedən e-arayışdan faydalanmaq üçün "Elektron Hökumət" portalında qeydiyyatdan keçmək mütləqdir.

"Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" e-xidməti sayəsində diplomlar haqqında daha dəqiq məlumat əldə etmək mümkün olacaq. Eyni zamanda "Tələbə-məzun" dövlət elektron məlumat sisteminin portala inteqrasiyası nəticəsində tezliklə portal üzərindən "Elektron CV"-lərin formalaşdırılması da mümkün olacaq.

Qeyd edək ki, "Tələbə-məzun" dövlət elektron məlumat sistemində olan məlumatlar əsasən 1992-ci ildən bu günə dək olan dövrü əhatə edir. TQDK tərəfindən elektron ərizə qəbulu 2008-ci ildən etibarən həyata keçirilir və həmin ildən başlayaraq, demək olar ki, bütün məlumatlar tam şəkildə FİN-ə (Fərdi İdentifikasiya Nömrəsi) uyğunlaşdırılıb. 2001-ci ildən 2008-ci ilə qədər dövr üzrə məlumatlar isə soyad, ad və ünvan üzrə İAMAS informasiya sistemi ilə üzləşdirilib və tapılan FİN-lər sistemə əlavə edilib. Buna görə də 1992-2008-ci illər üzrə FİN-ə görə bəzi məlumatlar tapılmaya bilər.

"Tələbə-məzun" dövlət elektron məlumat sistemi 2012-ci ilin may ayından istifadəyə verilib. Ona görə də 2012-ci ildən başlayaraq ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş şəxslərin diplom haqqında məlumatları təhsil müəssisələri tərəfindən sistemə daxil edilmişdir. Əvvəlki illərin buraxılış kontingentinin diplom haqqında məlumatları isə bəzi təhsil müəssisələri tərəfindən qismən sistemə daxil edilmişdir. Bu səbəbdən də 2012-ci ilə qədər təhsilini başa vurmuş şəxslərin diplom haqqında və ya digər zəruri məlumatları sistemdə olmaya bilər.

Bu problemi aradan qaldırmaq üçün yaxın günlərdə xidmət üzərindən xüsusi "Əks əlaqə" xidməti aktivləşdiriləcək və FİN-ə görə məlumatları tapılmayan istifadəçilər aidiyyatı təhsil müəssisəsinə sorğu ünvanlaya biləcəklər. Sorğu əsasında vətəndaşın çatışmayan məlumatları sistem administratorunun (TQDK) nəzarəti altında təhsil müəssisəsi tərəfindən sistemə daxil ediləcək və bundan sonra FİN üzrə axtarış etmək və e-arayışı avtomatik formalaşdırmaq mümkün

www.e-gov.az

# Təhsil Nazirliyi xaricdə təhsil almaq üçün müsabiqənin elektron qeydiyyatını portal üzərindən yeni versiyada təqdim edir




"Elektron Hökumət" portalında Təhsil Nazirliyinin təqdim etdiyi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" üçün "elektron ərizə" elektron xidməti təkmilləşdirilərək yeni versiyada istifadəçilərə təqdim edildi. Əvvəlki versiyada elektron ərizəyə məlumatları daxil etmək üçün giriş edilən zaman istifadəçi yalnız elektron poçt vasitəsilə qeydiyyatdan keçirilirdi. Yenilənmiş versiyada isə "elektron ərizə sistemi" nin "İAMAS"a (İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi) qoşulmasının təmin edilməsi ilə ərizəyə müvafiq qeydiyyatın şəxsiyyət vəsiqəsi (Fərdi İdenfikasiya Kodu - FİN vasitəsilə) ilə aparılması tətbiq edilmişdir.

Qeydiyyatdan keçən zaman istifadəçinin şəxsiyyət vəsiqəsində olan məlumatlar avtomatik olaraq ekranda əks olunur. İstifadəçi sadəcə elektron poçt ünvanını və şifrəni daxil edərək qeydiyyatdan keçmiş olur. Şifrə unudulan zaman isə onun bərpası, həmçinin, istifadəçinin yaratdığı ərizə ilə bağlı məlumatlar elektron poçt ünvanına göndərilir. Sistemin istifadəçini FİN-ə uyğun identifikasiya etməsi vətəndaşın e-xidmətdən istifadəsi zamanı təkrar qeydiyyatdan keçmənin qarşısını alır. Belə ki, istifadəçi bir dəfə qeydiyyatdan keçdikdən sonra növbəti dəfə xidmətə daxil olan zaman sistem artıq istifadəçisini tanıdığından, birbaşa olaraq tələb olunan məlumatları doldurmaq üçün ekranda ərizə forması açılır. Qeyd edək ki, xidmət istifadəçiyə ərizə formasını dolduran zaman e-xidmətdə tələb olunacaq sənədlərin siyahısı yerləşdirilən keçidi (linki) təqdim edir. İstifadəçi siyahıda adları qeyd olunan bütün tələb olunan sənədlərin sürətini (skan) elektron ərizəyə məlumatlar daxil edilən zaman sistemə yükləməlidir.

Elektron ərizələr tamamlandıqdan sonra Təhsil Nazirliyinin əməkdaşları tərəfindən araşdırılaraq, məlumatın və yüklənmiş sənədlərin müvafiq tələblərə uyğun olduğu təqdirdə qəbul edildiyi təsdiq ediləcəkdir. Hər hansı məlumat və ya yüklənmiş sənəd düzgün olmadığı təqdirdə iddiaçının ərizəsi qəbul olunmayacaq və bu barədə səhvlər göstərilməklə iddiaçının elektron ərizəsi yalnız bir dəfə düzəliş üçün geri göndəriləcəkdir. Həmçinin, istifadəçi elektron ərizəsini tamamladıqdan sonra müraciətinin statusunu real rejimdə izləyə bilmək imkanını əldə edəcək və hər bir status dəyişikliyi barədə ona avtomatik bildiriş göndəriləcəkdir.

Qeyd edək ki, istifadəçi ilkin variant olaraq sənədlərini elektron variantın xidmətdən istifadə edərək təqdim edir. Müsahibəyə dəvət olunan namizədlərdən müsahibə günü notarial qaydada tərcümə və təsdiqi tələb edilən sənədlərin surətinin Təhsil Nazirliyinə təqdim edilməsi tələb olunacaqdır. Əgər iddiaçının elektron ərizəsində göstərdiyi sənədlərdəki məlumatlarla müsahibə günü təqdim edəcəyi sənədlərin notarial qaydada təsdiq edilmiş surətləri arasında fərqlilik olarsa, həmin şəxs müsahibəyə buraxılmayacaq və onun müraciəti ləğv olunacaq.

Bununla yanaşı, ötən ildən fərqli olaraq, elektron ərizənin məzmununda da bəzi dəyişikliklər edilərək istifadəçilərə geniş imkanlar verilmişdir. Belə ki, iddiaçılar elektron ərizəyə yüklədikləri bütün sənədlərə baxa, onları silə və ya dəyişə biləcək, elektron ərizəni təsdiq etdikdən sonra onlardan əlavə sənədlər tələb olunduğu halda, onu da elektron qaydada izlənmə sistemi panelində yaradılmış imkan vasitəsilə təqdim edə biləcəklər.

# "Elekron hökumət portalı, elektron xidmətlər, elektron həllər və banklar ilə mümkün əməkdaşlıq" mövzusunda seminar keçirildi

*"Elektron Hökumət" portalının operatoru tərəfindən Respublikada fəaliyyət göstərən banklar üçün "Elekron hökumət portalı, elektron xidmətlər, elektron həllər və banklar ilə mümkün əməkdaşlıq" mövzusunda seminar təşkil edildi. Seminarda "Caspian Development Bank (CDB)" ASC, NBC Bank, Dəmir Bank, Bank Avrasiya ASC, Euro Bank ASC, Naxçıvan Bank ASC, Yapı Kredi Bank, Zamin Bank və s. bankların nümayəndələri iştirak etdilər.*



Seminarın təşkil edilməsində məqsəd portal üzərindən təqdim olunan elektron arayışların vətəndaşlar və biznes qurumlar üçün üstünlükləri, bu sistemə qoşulmuş qurumların təcrübələri, statistik məlumatlar, elektron arayışların tətbiq sahələri, müqavilə şərtləri ilə tanışlıq, sistemə qoşulmaq üçün prosedurlar, texniki şərtlər və təhlükəsizlik məsələləri barədə ətraflı informasiya verməklə bu sahədə maarifləndirmə işləri aparmaq və elektron arayışlarla kredit verən bankların, kredit təşkilatlarının və digər qurumların siyahısını genişləndirməkdir.

Seminarı MHM-in şöbə müdiri İlqar Abdullayev açıq elan etdi. O, Elekron Hökumət portalı, elektron xidmətlər, elektron arayışların vətəndaşlar və biznes qurumları üçün üstünlükləri, xidmətin əyani nümayişi, bu sistemə qoşulmuş qurumlar və xidmətlərdən istifadə sayı barədə ətraflı məlumat verdi. Məruzəçi problemli kreditlərin mövcud olduğu zamanda bankların kredit verilməsində böyük həssaslıq göstərdiyini, müraciətçilər barəsində daha geniş və dəqiq məlumat tələb olunduğunu vurğuladı. "Elektron Hökumət" portalı vasitəsilə isə vətəndaş üzrə əldə olunan məlumatlar müxtəlif dövlət qurumlarının (Daxili İşlər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Təhsil Nazirliyi, TQDK və s.) bazasından götürüldüyü üçün informasiyanın saxtalaşdırılması qeyri-mümkündür və təqdim olunan arayışlardakı məlumatların tamlığına və dəqiqliyinə tam zəmanət verilir.

Elektron Hökumət Portalı şöbəsinin müdiri Cəmşid Naxçıvanski sistemə qoşulmaq üçün texniki şərtlər və təhlükəsizlik məsələləri barədə ətraflı informasiya verdi. Bankların "Elektron Hökumət" portalına qoşulması üçün tələb olunan zəruri texniki detallar barədə danışıldı, həmçinin, portal üzərindən elektron arayışlardan istifadə üsulları və texniki əsası izah edildi. Məruzəçi qeyd etdi ki, bir müddət bankda test mühitində sınaqdan keçirildikdən sonra sistemin tam şəkildə istismarına start verilir.

Daha sonra, Marketinq şöbəsinin sektor müdiri Seymur Məmmədov sistemə qoşulmaq üçün prosedurlar, müqavilə şərtləri barədə informasiya verərək elektron arayışlardan hazırda faydalanan bankların əldə etdiyi müsbət nəticələrdən, elektron arayışların sosial mahiyyətindən danışdı.

Tədbir çərçivəsində MHM-in mütəxəssisləri tərəfindən bank əməliyyatçılarının elektron arayışlarla iş prosesi əyani olaraq nümayiş etdirildi.

Seminar iştirakçıların sualları əsasında müzakirələrlə davam etdi. Sonda, tədbirin iştirakçılarına e-imza kartları hədiyyə edildi.

Qeyd edək ki, seminar zamanı daha 4 bankın portala qoşulma istəyi qeydə alındı və bu barədə ilkin danışıqlar aparıldı.

Ümumilikdə, "Elektron Hökumət" portalı üzrə keçirilən bütün maarifləndirici tədbirlərin əsas hədəfi dövlət, eləcə də özəl qurumlarla əməkdaşlığın gücləndirilməsi, fikir və təcrübə mübadiləsinin aparılmasıdır. Bu da, sosial əməliyyatların elektronlaşması, məmur-vətəndaş ünsiyyətinin tədricən aradan qaldırılmasına xidmət edir.

## Rəqəmsal əsrdə yeni həyat tərzimiz... Elektron arayışlar

**Arayış hüquqi sənəd olaraq subyekt barədə hər hansı məlumatı təsdiqləmə vasitəsidir. Gündəlik həyatımızda hər addımbaşı arayışların tələb olunması, vətəndaşların əhvalına və gündəlik planlarına mənfi təsir göstərir.**

XXI əsrdə, İKT-nin inkişaf etdiyi bir dövrdə elektron vasitələrdən istifadə ilə informasiyanın emal olunması, saxlanması və ötürülməsi komputer vasitəsilə mümkündürsə, deməli kağız üzərində olan sənədlərin elektron şəkildə formalaşdırılmasının və daima itirilmək, korlanmaq təhlükəsi olan və bu baxımdan etibarsız "etibarlı kağız"ların aradan qaldırılmasının əsil zamanıdır.

Müasirlik, innovativlik var olanın mövcud xüsusiyyət və keyfiyyətlərinin daha faydalı, rahat modellərlə əvəzlənilməsi prosesidir. Necəki, indi bizə qəribə görünən köhnə model avtomobil, telefonlar, kompüterlər və sair kimi.

Müasir dövrün elektron rahatlıqlarını öz həyat tərzinə çevirmiş vətəndaş bu günlərdə qarşıya belə bir tələb qoyur: "Əgər məişətdə və işdə simsiz internetdən istifadə edirəmsə, istənilən yerdə, dağda, meşədə, dənizdə bir qurğu ilə bağlantı yaradıb işlərimi həll edirəmsə, bütün növ ödənişləri internet vasitəsilə elektron şəkildə apara bilirəmsə, niyə axı bir kağız parçasından asılı vəziyyətdə qalmalıyam?". Eləcə də, hökumət belə bir tələb qarşısındadır: "Hər bir sahəyə İKT-ni tətbiq edildiyi zamanda hələ də bir kağız parçasının verilməsi üçün bu qədər resurs istifadə edilməlidir?"




www.e-gov.az

Elektron arayışlar bizə nə verir? Bu sualın cavabını əyani müqayisələrlə daha aydın görmək mümkündür:

| Ənənəvi kağız üzərində arayışlar | Elektron arayışlar |
|---|---|
| ➔ Bütün ənənəvi arayışlar kağız üzərindədir, bu predmetin, itirilməsinə, parçalanmamasına, korlanmamasına və s. heç bir zəmanət verilmir.<br>➔ Ənənəvi arayışın formalaşdırılma mərhələləri: arayış üçün bir şəxsə müraciət edirik, həmin şəxs arayışı formalaşdırır, ötürür digər şəxsə, direktora, hətta o da digər bir şəxsə, direktor müavininə, sonda dəftərxanaçı digər bir kağız üzərində qeydiyyata alır və s....<br>➔ Ənənəvi arayışı əldə etmək üçün nə etmək lazımdır? Əksər əhali üçün belədir: işdən icazə almaq, müəyyən vaxt sərf edib, arayış verən orqana getmək, orada növbə gözləmək, vətəndaş məmur təması, bürokratiya və s.... | ➔ Elektron arayışı istənilən yerdən formalaşdırıb müvafiq quruma yönləndirmək cəmi 1 neçə dəqiqə vaxt tələb edir. Üstəlik elektron arayışda öz əksini tapan məlumatlar ölkənin ən etibarlı məlumat mərkəzlərində qorunur. Bunun üçün isə, yalnız kompüter və internet tələb olunur ki, bu da demək olar ki, hamıda var.<br>➔ Bu isə həm rahatlıq, həm də şəffaflıq deməkdir. |

Düşündürücü məsələdir, elə deyilmi? - Hələ də elektron arayışdan faydalanmamışıqsa, sadəcə bu üstünlüyü sınaqdan keçirməyimiz kifayətdir, digər mərhələdə isə bu üstünlük özü yaşam tərzimizin tərkib hissəsinə çevrilir.

Çox sevindirici haldır ki, elektronlaşma ölkəmizdə artıq elə bir səviyyədə inkişaf edib ki, nəinki, arayışların eləcə də, kağız üzərində olan digər sənədlərin belə elektron versiyası mümkün edilməkdədir.

Hazırda, vətəndaşlarımız "Elektron Hökumət" portalı (www.e-gov.az) vasitəsilə 8 növdə arayış əldə edə bilirlər:

Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi - "Elektron Hökumət" portalı tərəfindən hazırlanmış, 2014-cü ilin ikinci rübündən etibarən istifadəyə verilmişdir. Bu e-arayış istifadəyə verilən kimi bank əməliyyatlarının rəsmiləşdirilməsinə tətbiq olunmuşdur. Müvafiq e-arayış vətəndaşa aid Daxili İşlər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunan informasiyalardan təşkil olunur. Hazırda, "Bank of Baku", "Unibank" ASC, "Accessbank", "Bakı Ticarət Bankı", "Muganbank" ASC, "Bank Respublika" ASC, "AGBank" ASC, Rabitəbank ASC, "Azərbaycan Beynəlxalq Bankı" ASC , "Expressbank" və s. banklar (cəmi 23 bank) bu arayışlardan faydalanmaqdadırlar. Bu yaxınlarda lizing (AnsarLeasing) şirkətləri də e-arayışlardan istifadəyə start verib. "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" e-arayışının tətbiqi ilə sözügedən banklar kağız üzərində olan iş yerindən arayış tələbini aradan qaldırmış, öz müştərilərinin rahatlığı üçün e-arayışlardan istifadəyə keçid etmişlər.

**"İş yerindən arayış"** - 2014-cü ilin ikinci rübündən etibarən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən vətəndaşların istifadəsinə təqdim olunan digər bir e-arayış növüdür. Bu e-arayış vasitəsilə vətəndaş portala daxil olaraq öz iş yerinə dair arayış formalaşdırır.

**"Ümumtəhsil məktəblərində çalışan pedaqoji və texniki heyətin iş yeri haqqında elektron arayış"**- Təhsil Nazirliyi tərəfindən təqdim olunan bu e-arayış cari ildən etibarən vətəndaşların istifadəsindədir. Bu e-arayış vasitəsilə ümumtəhsil məktəblərində çalışan pedaqoji və texniki işçilərin öz iş yerlərinə dair arayışın formalaşdırılması üçün nəzərdə tutulmuşdur.

**"Ümumtəhsil məktəb şagirdlərinin təhsil aldıqları yer haqqında elektron arayış"** - Təhsil Nazirliyi tərəfindən təqdim olunmuş bu e-arayışdan ümumtəhsil məktəb şagirdləri faydalana, təhsil aldıqları yer haqqında arayış formalaşdıra bilərlər.

**Rabitə xidmətlərinə görə borcun olmaması ilə bağlı arayış** - Vətəndaşlar portalda qeydiyyatdan keçərək bu e-xidmət vasitəsilə rabitə xidmətləri üzrə borcun olub-olmaması barədə e-arayışı formalaşdıra bilərlər. E-arayışın elektron şəkildə göndərilməsi və çap edilərək aidiyyatı quruma təqdim edilməsi mümkündür.

**Yaşayış yeri haqqında arayış** - Vətəndaşlar portalda qeydiyyatdan keçərək bu e-xidmətə daxil olub, qeydiyyatda olduğu ünvan və doğulduğu yer haqqında arayışı formalaşdıra bilərlər. E-arayışın elektron şəkildə göndərilməsi və çap edilərək aidiyyatı quruma təqdim edilməsi mümkündür .

**FİN-ə görə fərdi məlumatların axtarışı** - Vətəndaşlar portalda qeydiyyatdan keçərək bu e-xidmətə daxil olub, şəxsiyyət vəsiqəsi üzrə məlumatları haqda e-arayışı formalaşdıra və müvafiq quruma göndərə bilərlər.

**Diplom haqqında məlumatlar** - Vətəndaşlar portalda qeydiyyatdan keçərək bu e-xidmətə daxil olub, tərkibində vətəndaşın şəxsiyyət vəsiqəsi və təhsil aldığı müəssisə üzrə informasiyaları özündə birləşdirən e-arayışı formalaşdıra bilir.

**"Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış"** e-arayışı vasitəsilə vətəndaşın ali təhsili barədə bütün informasiyaları (təhsil müəssisəsinin adı,təhsilin dövlət hesabına və ya ödənişli əsaslarla olması barədə məlumat, təhsil səviyyəsi, ixtisasın şifri, adı və təhsilalma forması, təhsil üzrə cari vəziyyət , diplomun seriya, nömrəsi və qeydiyyat nömrəsi, diplomun verilməsi haqqında əmrin tarixi, diplomun növü) əldə etmək mümkündür.

Məlum məsələdir ki, hər bir e-arayış tərkibinə görə digər arayışlardan fərqlidir. Bütün e-arayışların ümumi cəhəti, portal vasitəsilə avtomatik formalaşdırılması və eyni hüquqi qüvvəyə malik olmasıdır. Qeyd olunan e-arayışları çap etmək və ya aidiyyatı quruma göndərmək mümkündür. E-arayışların həqiqiliyini təsdiq etmək üçün QR- koddan istifadə edilir.

"Elektron Hökumət" portalı üzərindən təqdim olunan e-arayışlardan istifadə dinamikası aydan-aya, gündən günə artır. Statistik rəqəmlərə nəzər saldıqda görürük ki, 2014-cü ilin sentyabr ayından 2015-ci ilin aprel ayına qədər olan dövr ərzində portal üzərindən "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" və "İş yerindən arayış" e-xidmətləri vasitəsilə 120 mindən artıq e-arayış formalaşdırılaraq müvafiq qurumlara təqdim olunmuşdur.

"Elektron Hökumət" portalının Operatoru olaraq, tərəfimizdən mütəmadi olaraq bu sahə üzrə maarifləndirmə və təşviqat xarakterli tədbirlər həyata keçirilir və əminliklə deyə bilərik ki, e-xidmətlər barədə cəmiyyətin məlumatlılıq səviyyəsi artdıqca e-arayışların faydası və zəruriyyəti daha da qabarıq şəkildə nəzərə çarpacaq.

## Elektron xidmətlərdən istifadəni asanlaşdırmaq üçün "Elektron Hökumət" portalı vətəndaşlara istifadəçi təlimatlarını təqdim edir

"Elektron Hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən vətəndaşlarımızın daha asan və səmərəli şəkildə faydalanmaları məqsədilə "Elektron Hökumət" portalının Operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən Bakı şəhərində və yerlərdə mütəmadi olaraq maarifləndirmə xarakterli tədbirlər və treyninqlər həyata keçirlir. Eyni zamanda vətəndaşların e-xidmətlərdən daha çox istifadə etmələri məqsədilə motivasiya xarakterli müsabiqələr və kampaniyalar keçirlir.

Təcrübə göstərir ki, bütün vətəndaşlarımızın İKT üzrə savadlılıq səviyyəsi eyni olmadığından, bir sıra e-xidmətlərdən istifadə zamanı istifadəçilər çətinlik çəkirlər. Bu səbəbdən hal hazırda portalda yerləşdirilmiş 417 e-xidmət üzrə İstifadəçi Təlimatlarının hazırlanıb portalda yerləşdirilməsinə zərurət vardır. Lakin heç də bütün dövlət qurumları tərəfindən təlimatlar hazırlanıb təqdim olunmayb.

Prosesin sürətləndirilməsi məqsədilə "Elektron Hökumət" portalı təlimatların hazırlanmasını öz üzərinə götürməyə qərar verdi. Belə ki, portalınnın mütəxəssisləri tərəfindən keçən ilin ortalarından başlayaraq bütün qurumların e-xidmətləri üzrə İstifadəçi Təlimatlarının hazırlanılmasına başlanılmışdır. Təxminən 200-ə yaxın İstifadəçi Təlimatı hazırlanaraq portalda E-xidmətlər bölməsində xidmətlərin qarşısında yerləşdirilmişdir. Bundan əlavə bir sıra e-xidmətlərdən istifadə edilməsi qaydaları haqqında video-təlimatlar da hazırlanaraq portalda yerləşdirilib. Bu prosesin davam etdirilməsi və bütün e-xidmətlər üçün İstifadəçi Təlimatlarının və video-təlimatların hazırlanıb portalda yerləşdirilməsi nəzərdə tutulmuşdur. Məqsəd vətəndaşların xidmətlərdən istifadə qaydaları ilə tanış olmaları, xidmətdən istifadə üçün zəruri biliklərin mənimsənilməsidir.

Eyni zamanda Nazirlər Kabinetinin müvafiq qərarına əsasən təsdiq edilmiş bütün e-xidmətlər üzrə İnzibati Reqlamentlər hazırlanaraq təsdiq edilməlidir. İnzibati Reqlamentlərdə elektron xidmətin adı, məzmunu, hüquqi əsası, digər icraçılar, elektron xidmətin göstərilməsinin nəticəsi, inzibatı procedurları və s. kimi məlumatlar öz əksini tapmaldır. Hal hazırda 254 e-xidmət üzrə İnzibati Reqlamentlər portalda yerləşdirilib və digər xidmətlər üzrə də İnzibati Reqlamentlərin portalda yerləşdirilməsi üçün dövlət qurumları ilə birgə işlər görülür.

## "Elektron Hökumət" portalının əməkdaşları Startup Azərbaycan toplantısında iştirak ediblər




Aprel ayı ərzində portalın əməkdaşları Azərbaycan Memarlıq və İnşaat Universitetinin və Azərbaycan Texniki Universitetinin tələbələri üçün təşkil olunan Startap Azərbaycan toplantısında iştirak ediblər. Startap Azərbaycan layihəsi çərçivəsində keçirilmiş görüş startaplar və internet biznes sahəsi ilə maraqlanan tələbələr üçün nəzərdə tutulmuşdur.

Toplantıda Startap Azərbaycan Komandasının üzvləri, "Elektron Hökumət" portalının və RYTN yanında İT-nin İnkişafı Dövlət Fondunun nümayəndələri çıxış etmişlər.

Toplantıda Startap Azərbaycan haqqında, "Elektron Hökumət" portalı çərçivəsində keçirilən yeni startap müsabiqəsi haqqında, İT-nin İnkişafı Dövlət Fondunun qrant layihələri haqqında məlumatlar verilib.

Toplantı çərçivəsində "Elektron Hökumət" quruculuğu, e-xidmətlər, "Elektron Hökumət" portalı, e-sənəd, e-imza haqqında ətraflı informasiya verilmiş, "Elektron Hökumət"in yeni mərhələsi E-Gov 3.0 Açıq Hökumət Məlumatları, portalın operatoru RYTN-nin MHM-i tərəfindən hazırlanaraq cari ildən istifadəyə verilən data.gov.az portalı barədə danışılıb.

Startap Azərbaycan layihəsinin əsas məqsədi milli startupların üzə çıxarılmasına və inkişafına dəstək vermək, bu istiqamətdə maarifçilik işləri həyata keçirmək, ölkədə İnternet biznes mühitini yaxşılaşdırmaq və investorların bu sahəyə diqqətini artırmaq və innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə yardım etməkdir.

Qeyd edək ki, Startup Azərbaycan Layihəsinə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İT-nin İnkişafı Dövlət Fondu, Elektron Hökumət Portalının operatoru və Yüksək Texnologiyalar Parkı dəstək verir.

www.e-gov.az

## 01.04.2015 – 30.04.2015-ci il dövrü ərzində "Elektron Hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 414374 |
| 2 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu | TQDK | 345010 |
| 3 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 151020 |
| 4 | Sınaq imtahanına yazılış | TQDK | 143591 |
| 5 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 91835 |
| 6 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 70706 |
| 7 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 44581 |
| 8 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 41104 |
| 9 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 34895 |
| 10 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 21214 |
| 11 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 17546 |
| 12 | TQDK-nın virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı | TQDK | 16920 |
| 13 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Arayışlar | 14825 |
| 14 | İş yerinə dair arayış | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 14018 |
| 15 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 12959 |
| 16 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 11711 |
| 17 | Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış | Elektron Arayışlar | 10570 |
| 18 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8061 |
| 19 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7868 |
| 20 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7374 |

## 01.05.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 81 | 161 | 242 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.04.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 18396 | 5817 | 7469 | 31682 |

www.e-gov.az

## 2015-ci ilin aprel ayı ərzində bütün qurumlar üzrə "Elektron Hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 15 | 1016575 |
| 2 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 212512 |
| 3 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 43 | 179196 |
| 4 | Dövlət Sosial Müdafiə Fondu | 14 | 85033 |
| 5 | Elektron Arayışlar | 15 | 40127 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 5182 |
| 7 | Təhsil Nazirliyi | 5 | 3898 |
| 8 | "AzərEnerji" ASC | 2 | 1618 |
| 9 | Dövlət Gömrük Komitəsi | 6 | 1467 |
| 10 | "Azərsu" ASC | 3 | 1088 |
| 11 | Mərkəzi Seçki Komissiyası | 7 | 1022 |
| 12 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 897 |
| 13 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 | 667 |
| 14 | Səhiyyə Nazirliyi | 6 | 577 |
| 15 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 500 |
| 16 | Milli Arxiv İdarəsi | 2 | 496 |
| 17 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 472 |
| 18 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 446 |
| 19 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 311 |
| 20 | Ədliyyə Nazirliyi | 2 | 281 |
| 21 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 273 |
| 22 | Vergilər Nazirliyi | 6 | 261 |
| 23 | Dövlət Statistika Komitəsi | 4 | 221 |
| 24 | Nəqliyyat Nazirliyi | 4 | 172 |
| 25 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 155 |
| 26 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 132 |
| 27 | Xarici İşlər Nazirliyi | 1 | 110 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 97 |
| 29 | Dövlət Sərhəd Xidməti | 3 | 90 |
| 30 | Dövlət Miqrasiya Xidməti | 1 | 86 |
| 31 | Fövqəladə Hallar Nazirliyi | 3 | 81 |
| 32 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12 | 74 |
| 33 | Baş Prokurorluq | 1 | 66 |
| 34 | Dövlət Dəniz Administrasiyası | 18 | 57 |
| 35 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 55 |
| 36 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 50 |
| 37 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 48 |
| 38 | Gənclər və İdman Nazirliyi | 4 | 43 |
| 39 | Energetika Nazirliyi | 5 | 42 |
| 40 | Müəllif Hüquqları Agentliyi | 5 | 36 |
| 41 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 15 |
| 42 | "Aqroliziq" Açıq Səhmdar Cəmiyyəti | 1 | 11 |
| | **CƏMİ** | **274** | **1554540** |

"E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.05.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 12 | 17 | 16 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 62 | 57 | 59 | 58 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 14 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 6 | 12 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 32 | 31 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 15 | 34 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 6 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 9 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 31 | 31 | 26 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 15 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 39 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 40 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 42 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **454** | **332** | **397** | **461** | **401** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC" | | | 2 | 3 | |
| 3 | Azərenerji" ASC | | | 2 | 3 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 9 | |
| 5 | Baş Prokurorluq | | | 1 | 1 | |
| 6 | Biləsuvar Rayon İcra Hakimiyyəti | | | 1 | 1 | |
| 7 | Elektron Arayışlar | | | 2 | | |
| | **CƏMİ:** | | | **20** | **19** | |
| | **YEKUN** | **454** | **332** | **417** | **480** | **401** |

# “Elektron Hökumət” portalına daxil olanların sayı 1 710 901 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) “Elektron Hökumət” portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin aprel ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 5,891,732 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 1,710,901 nəfər olub. Belə ki, 1,710,901 nəfər ümumən 5,891,732 dəfə portala baxıb və 10,162,678 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 21,534,442 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 48 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 29.1%-ni yeni istifadəçilər, 70.9%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Aprel ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 1,037,605 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 335,862 nəfər olub. Həmin şəxslər 2,736,077 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1,554,540 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 01 saniyə təşkil edib. Mart ayı ərzində portala müraciət edənlərin 24.9%-ni yeni istifadəçilər, 75.1%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 213,623-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 417 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az